## AZƏRBAYCAN RESPUBLİKASI
## NAXÇIVAN MUXTAR RESPUBLİKASI
## NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının tərkibi haqqında**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 29 dekabr tarixli 225-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə əsasən, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təklifini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin kollegiya üzvlərinin sayı 7 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri

**Kollegiyanın üzvləri:**

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavinləri

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi Aparatının rəhbəri

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi.

2. “Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının tərkibi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 54 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “ 28 ” fevral 2024-cü il

№ 22